# Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə

**“Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə”nin təsdiqi barədə**
**Azərbaycan Respublikası Təhsil Nazirinin əmri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.02.1997-ci il tarixli 15 nömrəli qərarılə təsdiq olunmuş “Magistr hazırlığı haqqında” əsasnaməni əsas tutub ali təhsilin magistratura pilləsində magistrlik dissertasiyasının hazırlanması, təsdiq olunması və müdafiəsini nizama salmaq məqsədilə

**ƏMR EDİRƏM**

1. “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).
2. Ali və orta ixtisas idarəsi (İ.Mustafayev) əmrin yerlərə çatdırılması və tətbiqini təmin etsin.
3. Ali məktəb rektorlarına tapşırılsın ki, magistr hazırlığı prosesində bu əsasnaməyə ciddi riayət olunmasını təmin etsinlər.
4. Əmrin icrasına nəzarət nazir müavini Ə.Abdinova tapşırılsın.

***Misir Mərdanov***
***Təhsil naziri***
***20.04.1998-ci il***
***№ 202***

---

**Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə**

**I. Ümumi qaydalar**

1.1. Əsasnamə mədəniyyət, incəsənət və bədən tərbiyəsi sahələrindən bəzi ixtisaslar istisna olmaqla “Magistr” dərəcəsinin verilməsi qaydalarını müəyyən edir.

“Magistr” dərəcəsi magistrlik dissertasiyalarının müdafiəsi üçün ali məktəb tərəfindən mövcud qaydalara uyğun yaradılmış müvafiq ixtisaslaşdırılmış şuraların qərarı əsasında verilir.

1.2. Magistrlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş şəxslərə vahid dövlət nümunəli diplom verilir.

**II. Magistrlik dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış şuralar**

2.1. Ali təhsilin magistratura pilləsində təhsilin yekun mərhələsi magistrlik dissertasiyasının müdafiəsidir. Magistrlik dissertasiyasının müdafiəsinə tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəyən və müvəfəq qiymət alanlar buraxılırlar. Magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclasında aparılır.

2.2. İxtisaslaşdırılmış şuralar magistr hazırlığı sisteminin mühüm tərkib hissələrindən biri olub, təqvim ili müddətinə yaradılır və fəaliyyət göstərir.

2.3. İxtisaslaşdırılmış şuraların yaradılması haqqında vəsatəti magistr hazırlığı proqramını yerinə yetirən kafedraların təqdimatı əsasında həmin kafedraların daxil olduğu fakültə qaldırır.

2.4. İxtisaslaşdırılmış şuraların yaradılması qaydası Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş müvafiq əsasnamə ilə müəyyən edilir.

2.5. İxtisaslaşdırılmış şuralarda magistrlik dissertasiyalarının müdafiəsi üçün qoyulan tələblərə əməl olunması və müdafiə qaydalarının pozulması halları aşkar edilərsə, ali təhsil müəssisəsinin başçısı şuranın fəaliyyəti ilə bağlı təşkilati tədbirlər görə bilər.

2.6. İxtisaslaşdırılmış şuraların işinə təhsil müəssisəsinin təqdimatı əsasında Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş sadr rəhbərlik edir. Şuraların işinə nəzarət isə nəzdində olduqları fakültənin dekanı, eləcə də ali təhsil müəssisəsinin başçısı və tədris işləri prorektoru tərəfindən həyata keçirilir.

Ali məktəbin və fakültənin rəhbərliyi ixtisaslaşdırlımış şuraların işi üçün lazımi şərait yaradılmasına məsuliyyət daşıyır.

2.7. Magistrlik dissertasiyalarının müdafiəsi ilə əlaqədar xərclərin ödənilməsi müvafiq sənədlərlə tənzimlənir.

2.8. Magistrlik dissertasiyalarının müdafiəsi zamanı magistrantın biliyinin qiymətləndirilməsi sadə səs çoxluğu əsasında açıq səsvermə yolu ilə aparılır. Magistrlik dissertasiyasının müdafiəsi “qeyri-kafi”, “kafi”, “yaxşı”, “əla” qiymətlərlə qiymətləndirilir.

## III. Magistrlik dissertasiyalarına qoyulan tələblər

3.1. Magistrlik dissertasiyası elmi rəhbərin rəhbərliyi altında magistrantın müstəqil yerinə yetirdiyi elmi-tədqiqat (yaradıcılıq) və ya təcrübi-konstruktor işidir. Magistrlik dissertasiyası magistrantın müvafiq ixtisaslaşma və ya sahə üzrə gətirdiyi yeniliyi əks etdirməlidir.

Magistrlik dissertasiyasının hazırlanması və müvəffəqiyyətlə müafiəsi magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtdir.

3.2. Magistrlik dissertasiyası aşağıdakı tələblərdən birinə cavab verməlidir:

- işdə baxılan müvafiq elmi istiqamət üçün mühüm əhəmiyyəti olan hər hansı məsələnin yaradıcı həllinə;
- mühüm tədbiqi əhəmiyyəti olan texniki, iqtisadi və texnoloyi işləmələrin təkmilləşdirilmiş elmi şərhinə.

Magistrlik dissertasiyasında magistrantın əldə etdiyi nəticələr elmi və praktiki cəhətdən əsaslandırılmalı, mövcud faktlarla müqayisəli qiymətləndirilməli və onların istifadəsi üçün tövsiyələr verilməlidir.

3.3. Magistrlik dissertasiyasının mövzusu və planı, magistrantın elmi rəhbəri onun təhkim olunduğu kafedranın elmi istiqamətləri ilə əlaqələndirilməli və kafedranın təqdimatı əsasında fakültənin elmi şurası tərəfindən birinci semestin 3 ayı ərzində təsdiq edilməlidir.

3.4. Magistranta dissertasiya mövzusunu təklif edərkən tədqiqatın məqsədəuyğunluğu əsaslandırılmalıdır.

Bir sıra zəruri hallarda, o cümlədən magistrlik dissertasiyasının mövzusu ixtisasların qovuşuğuna uyğun gəldikdə, magistrantın dissertasiyasını elmi rəhbəri ilə yanaşı, ona məsləhətçi də təyin edilə bilər. Məsləhətçi başqa təhsil, elmi-tədqiqat və təsərrüfat müəssisələrinin yüksək ixtisaslı mütəxəssislərindən də seçilə bilər.

3.5. Magistrlik dissertasiyaları yerinə yetirilməyə başlanana qədər magistrantın təhkim olunduğu kafedra müvafiq fakültələrlə və magistratura şöbəsi (magistraturaya məsul şəxs) ilə birlikdə istiqamət üzrə dissertasiyalara qoyulan məcburi tələbləri müəyyən edən metodiki göstərişlər hazırlamalı və magistrantları bu göstərişlərlə tanış etməlidir.

3.6. Magistrantın elmi rəhbəri:

- magistranta dissertasiyası üçün tapşırıq verir;
- magistranta dissertasiyanın yerinə yetirilmə dövrünü əhatə edən fərdi iş planının
- hazırlanmasında köməklik göstərir;
- magistranta dissertasiya işi üçün lazım olan elmi metodik ədəbiyyatı, məlumat və arxiv materiallarını, layihələri və digər mənbələri tövsiyə edir;
- magistrantla müntəzəm olaraq fərdi iş planına uyğun söhbətlər aparır, ona elmi-metodik məsləhətlər verir.

3.7. Magistrantlar magistrlik dissertasiyasının hazırlanması barədə elmi rəhbər və kafedra qarşısında vaxtaşırı hesabat verirlər. Kafedralar üzrə hesabat verirlər. Kafedralar üzrə hesabatın vaxtını fakültə rəhbərliyi müəyyən edir. Hesabatın nəticələrinə ğörə işin hazırlıq dərəcəsi müəyyənləşdirilir.

3.8. Magistrlik dissertasiyasında şərh olunan məlumatların düzgünlüyü üçün magistrant məsuliyyət daşıyır.

3.9. Magistrlik dissertasiyası təlim dilində yazılır və bu zaman magistrant istifadə etdiyi materiallarla, ayrı-ayrı nəticələrin mənbələrinə bə müəlliflərinə uyğun qaydada istinad etməlidir.

Müəllifinə və ədəbiyyatına istinad olunmadan özgə materiallardan istifadə edildikdə, dissertasiya müdafiə ilə bağlı istənilən baxılma mərhələsində geri qaytarılır.

3.10. Magistrlik dissertasiyası makinada və ya kompüterdə 2 intervalla çap edilməli, əlavələrl birlikdə həcmi 75 makina səhifəsindən çox olmamalı və cildlənməlidir. Magistrlik dissertasiyasının titul vərəqəsinin və mətninin tərtibi əlavə 8-də göstərilən tələblərə uyğun olmalıdır.

3.11. Magistrant müdafiə üçün dissertasiyanın qısa məzmununu əks etdirən referat tərtib edilməlidir (əlavə 9). Referatın həcmi 1,5 intervalla yazılmalı və 2 makina səhifəsindən çox olmamalıdır.

3.12. Magistrant kafedranın razılığı ilə dissertasiyanın qısa məzmununu (referatın) xarici dillərdən birində yaza və müdafiə zamanı suallarla həmin xarici dildə cavab verə bilər.

## IV. Magistrlik dissertasiyasının təqdim olunması və müdafiəsi

4.1. Magistrlik dissertasiyasının müdafiəsi bir qayda olaraq may-iyun aylarında təsdiq olunmuş qrafik əsasında keçirilir. Magistrlik dissertasiyasının müdafiəsi yalnız üzürlü səbəblər olduqda, müyyən olunmuş qaydalar əsasında başqa vaxta keçirilə bilər.

4.2. Magistrant öz dissertasiya işini bitirdikdən və qoyulan tələblərə uyğun tərtib etdikdən sonra referatla birlikdə elmi rəhbərə təqdim edilir. Elmi rəhbər işi yoxlayıb, bəyəndikdən sonra yazılı rəyi ilə birlikdə ilkin müzakirə üçün kafedraya təqdim edir. Rəydə dissertasiyanın bütün bölmələri üzrə görülmüş iş səciyyələndirilir və alınan nəticələrin doğruluğu əsaslandırılır. Dissertasiya kafedrada müzakirə edilir və yekun rəyləbirlikdə fakültə dekanına təqdim olunur. Fakültə dekanı təqdim olunmuş materialların müdafiəyə buraxılması barədə qərar qəbul edir və magistrlik dissertasiyasının titul vərəqində müvafiq qeydlər aparır.

Fakültə dekanı magistrantı dissertasiya müdafiəsinə buraxmağı mümkün hesab etmədikdə bu məsələyə elmi rəhbərin iştirakı ilə dekanlıqda baxılır.

4.3. Müdafiəyə buraxılmış magistrlik dissertasiyaları müvafiq kafedra tərəfindən ən azı 15 gün qalmış rəsmi rəyçiyə göndərilir.

Rəsmi rəyçilər elmi və istehsalat müəssisələrində çalışan aparıcı mütəxəssislər, həmin ali məktəbdə və ya digər ali məktəblərdə çalışan elmi dərəcəyə malik mütəxəssislər sırasından təyin oluna bilər.

4.4. Rəsmi rəyçi magistrlik dissertasiyasını araşdıraraq yazılı rəy hazırlayıb ixtisaslaşdırılmış şuraya təqdim edir. Həmin rəydə mövzunun aktuallığı, onun nəticələrinin yeniliyi və işin magistrlik dissertasiyalarına qoyulan tələbələrə cavab veerməsi öz əksini tapmalıdır.

Rəsmi rəyçinin yazılı rəylərinin surətləri müdafiəyə ən azı 5 gün qalmış magistrantın razılığı ilə iş müdafiəyə təqdim oluna bilər. Rəsmi rəyçi yazdığı rəyin keyfiyyəti və obyektivliyi, rəyin təyin edilmiş müddətində magistrant və ya ixtisaslaşdırılmış Şuraya təqdim edilməsi üçün cavabdehlikdir.

4.5. Magistrlik dissertasiyasının ixtisaslaşdırılmış Şurada müdafiəsi üçün magistrant müdafiəyə ən azı 3 gün qalmış Şuraya aşağıdakı sənədləri təqdim edir:

- ərizə (dekanın müvafiq dərkənarı ilə);
- elmi rəhbərin rəyi;
- magistrlik dissertasiyası – 1 nüsxə (müdafiədən sonra fakültədə saxlanılır);
- referat 1 nüsxə (müdafiədən sonra fakültədə saxlanılır);
- rəsmi rəyçinin rəyi;
- magistrantın fərdi iş planının surəti.

4.6. İxtisaslaşdırılmış şuranın katibi sənədləri yoxlayıb qəbul edir, müdafiənin vaxtı və
keçirəcəyi yer barədə referatda müvafiq qeydlər aparır.

4.7. Əgər, tələb olunan sənədlər və materiallar magistrant tərəfindən vaxtında təqdim olunmazsa, müdafiənin vaxtı yalnız üzürlü səbəblər olduqda müəyyən olunmuş qaydalara uyğun dəyişdirilə bilər.

4.8. İxtisaslaşdırılmış şuranın iclası onun işində təsdiq olunmuş tərkibin ən azı üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

4.9. Magistrlik dissertasiyasının açıq müdafiəsi elmi müzakirə xarakteri daşımalı, yüksək tələbkarlıq, prinsipiallıq və elmi riayət şəklində keçməlidir. Bu zaman dissertasiyada olan bütün nəticələrin, elmi və praktiki xarakterli təkliflərin dürüstlüyü və əsaslandırılması hərtərəfli təhlil edilməlidir.

Elmi rəhbər və rəsmi rəyçilər müsbət rəy təqdim etdikdə müdafiədə iştirak etməyə bilərlər.

İxtisaslaşdırılmış şurada hər magistrlik dissertasiyasının müdafiəsi üçün minimum 45 dəqiqə vaxt ayrılır ki, onun da 10-15 dəqiqəyə qədəri magistrantın məruzəsi üçün nəzərdə tutulub.

4.10. Dissertasiyanın müdafiəsi qurtardıqdan sonra ixtisaslaşdırılmış şuraın üzvləri mövcud qaydada səsvermə keçirir.

Əgər iclasda iştirak edən şura üzvlərinin yarıdan çoxu magistr dərəcəsi verilməsinin lehinə səs vermişdirsə, ixtisaslaşdırılmış çuranın qərarı ilə magistr dərəcəsi verilir.

4.11. Əgər dissertasiya barədə ixtisaslaşdırılmış şura mənfi qərar qəbul edərsə, onun yenidən müdafiəsinə işdəki çatışmazlıqlar aradan qaldırılmaqla, mənfi qərar qəbul edilən gündən ən azı bir ay müddət keçdikdən sonra icazə

verilir. Əgər dissertasiya barədə yenidən mənfi qərar çıxarılarsa, onun yeni mövzuda təkrar (2 dəfədən çox olmamaqla) müdafiəsinə növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir.

4.12. Təkrar müdafiə olmadıqda, magistranta müvafiq proqramı dinlədiyi haqda arayış verilir.